azercosmos | AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ

# İLLİK HESABAT

# 2024

AZƏRBAYCAN RESPUBLİKASININ
KOSMİK AGENTLİYİ - AZƏRKOSMOS







COP29
Baku
Azerbaijan



# Mündəricat


- Azərbaycanın kosmik strategiyası 2030
  - Strateji İnkişaf Planı
- Haqqımızda
  - Azərbaycanın müasir kosmik ekosisteminin qurucusu: Azərkosmos
  - Əməkdaşlarımız
  - Baxış, missiya və dəyərlər
- Maliyyə göstəricilərimiz
- Qlobal kosmik mənzərə
- Xidmətlərimiz
  - Telekommunikasiya
  - Peyk interneti
  - Yerin məsafədən müşahidəsi xidmətləri
- COP29 tədbirində fəaliyyətimiz
- Beynəlxalq əməkdaşlıq
  - Əməkdaşlıq coğrafiyamız
- Kosmik ekosistem
  - Maarifləndirici fəaliyyət
  - İnsan kapitalının inkişafı
  - İntellektual məhsulun ixracı
  - KOSMİK Akademiya
- Azərkosmos qlobal medianın gözündə
- Gələcək fəaliyyətin prioritetləri
  - Yeni strateji layihələrimiz
  - Dayanıqlı inkişaf
- Yekun



Biz əlbəttə ki, yeni texnologiyaları alırıq, texnoloji inkişafa böyük dəstək veririk, ancaq burada vacib məsələlərdən biri kadr hazırlığıdır. Deyə bilərəm ki, bu istiqamətdə son 1-2 il ərzində böyük inkişaf mövcuddur.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Andiçmə mərasimindən sitat, 2024 - cü il

azercosmos

# Azərbaycanın kosmik strategiyası 2030

Azərbaycan Respublikasında 2024 - 2030-cu illər üzrə kosmik sahənin inkişaf perspektivlərini və kosmik proqramın hədəf, məqsəd və prioritet istiqamətlərini müəyyən etmək məqsədilə Azərbaycanın Kosmik Strategiyası hazırlanıb. Kosmik Strategiya layihəsindəki əsas hədəf 2030-cu ilədək Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını dəstəkləyən dayanıqlı kosmik proqramın həyata keçirilməsidir. Kosmik strategiyanın əsas prioritet istiqamətləri arasında aşağıdakı fəaliyyətlər yer alır:



1. Mövcud peyk xidmətlərinin dayanıqlığının təmin edilməsi
2. Kosmik sahə üzrə yerli istehsal potensialının formalaşdırılması, iş yerləri və məşğulluq imkanlarının yaradılması
3. Azərbaycan Respublikasının milli maraqlarının və təhlükəsizliyinin təmin edilməsinə dəstək verilməsi
4. Kosmik sahədə elmi tədqiqatların genişləndirilməsi və insan kapitalının inkişafı
5. Kosmik sahədə startapların, innovativ kiçik və orta biznesin dəstəklənməsi

# Strateji İnkişaf Planı

Azərkosmosun yeni 2025-2027-ci illər üçün Strateji İnkişaf Planı (SİP) tərtib edilmişdir.
Azərkosmosun 2025-2027-ci illər üzrə Strateji İnkişaf Planı kosmik sahə üzrə növbəti üç ildə inkişaf perspektivlərini və agentliyin məqsəd, hədəf və prioritet istiqamətlərini müəyyən etmək məqsədilə hazırlanmışdır.

**SİP 2025-2027-ci illər üzrə 4 məqsədimiz:**

1)Ölkənin Kosmik iqtisadiyyatında dayanıqlı artımı təmin etmək
2)Qabaqcıl texnologiyalarla ölkəmizin milli maraqlarının qorunmasına xidmət
3)Kosmik ekosistem fəaliyyətinin genişləndirilməsi
4)Azərbaycanın kosmik ölkə kimi beynəlxalq mövqeyini gücləndirmək

2022-2024-cü illər üzrə Strateji İnkişaf Planımıza uyğun olaraq **16 layihə və 14 fəaliyyətimizin** icrası üzrə nəticəmiz **89%** olmuşdur.

**SİP 2024**

**89%**
4 Məqsəd
15 Hədəf

**16 Layihə**
6 tamamlanmış layihə

**14 Fəaliyyət**
6 tamamlanmış fəaliyyət

# Haqqımızda

**Azərbaycanın müasir kosmik ekosisteminin qurucusu: Azərkosmos**

Azərbaycan Respublikasının Kosmik Agentliyi – Azərkosmos Azərbaycanın müasir kosmik ekosisteminin qurucusudur. Azərkosmos 2010-cu ildə fəaliyyətə başlayıb. **Avropa, Afrika, Yaxın Şərq və Mərkəzi Asiya** regionlarındakı **200-dən çox** tərəfdaşına telekommunikasiya, Yerin müşahidəsi üzrə peyk xidmətləri və həlləri, o cümlədən kosmos sahəsində özünün intellektual məhsullarını təqdim edir. Qlobal miqyasda telekommunikasiya xidmətlərinin coğrafiyasını genişləndirmək, insan kapitalının inkişafına töhfə vermək, regional kosmik mərkəz olaraq xidmətlərini artırmaq və Azərbaycanda kosmik sənayenin inkişafını irəliyə aparmaq Azərkosmosun fəaliyyətinin prioritet istiqamətləridir.

# Azərkosmosun İdarə Heyəti



**Dunay Bədirxanov**
İdarə Heyətinin sədrinin vəzifəsini müvəqqəti icra edən



**Fuad Aslanov**
İdarə Heyətinin sədrinin müavini

## Missiya, Baxış və Dəyərlər

# Missiya

Agentliyimizin missiyasını daim əsas tutaraq biz kosmik fəaliyyət sahəsində sülh və rifah naminə qabaqcıl texnoloji həllər yaratmağı və davamlı inkişaf etməyi hər zaman ön pillədə saxlayırıq.

# Baxış

Baxışımız - Azərbaycanı dünya kosmik sahəsinin aparıcı qüvvələrindən birinə çevirməkdir.

# Dəyərlər

Korporativ dəyərlərimiz fəaliyyətimizin əsasında duran əsas prinsiplərdir. Ölkənin qabaqcıl qurumu olaraq Fəaliyyətimizi Strateji İnkişaf Planı əsasında qurur, korporativ idarəetmənin ən son yeniliklərini tətbiq edirik.

Dəyərlər sadəcə qaydalar toplusu deyil, təcrübədə istifadə edə bildiyimiz alətlərdir. Korporativ dəyərlərimiz çalışqanlıq, əməkdaşlıq, dürüstlük, yeniliyə açıqlıq və çeviklikdir.



# Əməkdaşlarımız

Azərkosmosun işçi heyətinin sayı **200-dən** çoxdur. Azərkosmosun əməkdaşları Azərbaycanın, eləcə də xarici ölkələrin qabaqcıl ali məktəblərinin məzunları, gənc və peşəkar yerli mütəxəssislərdir.

Əməkdaşların **30%-i** bakalavr və ya magistratura təhsilini **Türkiyə, Rusiya, Macarıstan, İngiltərə, Fransa, ABŞ və İtaliya** kimi ölkələrdə alıblar. Azərkosmos qadınların kosmik cəmiyyətə inteqrasiya etməsi üçün gender bərabərliyinə xüsusi diqqət ayırır. İşçi heyətin **32%-i** qadınlardır.







İşçi heyətinin davamlı olaraq beynəlxalq səviyyədə ekspertlər tərəfindən təlimləndirilməsi proqramı həyata keçirilir.



Azərkosmosun əməkdaşları qazanmış olduqları bilik və təcrübəni kosmos sahəsində inkişaf etməkdə olan ölkələrə təqdim edir. Artıq bir neçə ildir ki Azərkosmos istedadlı kadrların müəyyən edilməsi, inkişafı və saxlanılması məqsədilə strukturlu yanaşma tətbiq edir. Buraya daxili mentorluq proqramı, “Dost” həmkar (Buddy) proqramı, işçilərin inkişafı ilə bağlı “İşçilərin Fərdi İnkişaf planı” prosedurunun tətbiqi, və həmçinin rəhbər və işçi heyətinə müvafiq təlimlər verilməsi daxildir. Azərkosmosun mütəxəssisləri müxtəlif mövzularda, o cümlədən “Korporativ Liderlik Bacarıqlarının İnkişafı”, “Radiotezliklərin İdarəedilməsi”, “Layihələrin İdarəedilməsi”, “Biznesin Davamlılığının İdarəetmə Sistemi üçün Həllərin layihələndirilməsi”, “Satellite Communication”, “Coğrafi İnformasiya Sistemlərinin əsasları” və digər təlimləri keçirlər.

# 2024-cü ildə Təlim və inkişafla bağlı fəaliyyət

**Kənar təlimlər**
156 mövzu
302 iştirakçı

**Daxili təlimlər**
26 mövzu
694 iştirakçı

**Kitablar**
35 yeni kitab sifarişi (təlim planı çərçivəsində)
35 işçi üçün

**Proqramlar**
FİP
Buddy proqramı

## 2024-cü ildə daxili təlimlər üzrə statik məlumatlar

26 mövzuda daxili təlim → 63 sessiyada təşkil olunub → 9 texniki sessiya təşkil olunub → 694 iştirakçı → 16 təlimçi

## 2024-cü ildə kənar təlimlər üzrə statik məlumatlar

130 təlim online formatda → 26 təlim offline formatda → 52 texniki mövzu → 302 iştirakçı → 35 kitab







# Maliyyə göstəricilərimiz

**2013-cü ildən başladığı kommersiya fəaliyyətinin nəticəsi olaraq Azərkosmos indiyə kimi 650 milyon manat gəlir əldə edib.**

2024-cü ildə 50-yə yaxın ölkədə 200-ə yaxın şirkətə telekommunikasiya və yer müşahidəsi üzrə xidmət və həllər, o cümlədən teleport xidmətləri və əlavə dəyər yaradan yeni biznes xətti olan təlim və konsultasiyadan ümumilikdə 47.4 milyon manat gəlir əldə etmişik.

2024 əlavə dəyər xidmətlərimizdə 2 dəfəyə yaxın artım müşahidə olunub. **2023-də 1.4 milyon manat** təşkil edirdirsə, **2024-də 2.7 milyon manat** olmuşdur.

**200**
Tv və Radio kanallar

**200+**
Yerli və beynəlxalq tərəfdaş

**50+**
Xidmət göstərilən ölkərin sayı

**100+ milyon**
İstifadəçi

**80%**
Peyk resurslarının istifadəsi

**80%**
İxracdan formlaşan gəlir

# Qlobal Kosmik Mənzərə

2024-cü ildə qlobal iqtisadiyyat illik 3% artım tempi ilə COVID-19 pandemiyasından sonrakı illərdə yaşanan çətinliklərdən sonra sabit və stabil dövr kimi yadda qaldı. Qlobal kosmik gəmi və buraxılış bazarlarında hər iki bazarda 70% ortaq bazar payı ilə ABŞ və Çin üstünlük təşkil etdi. 2024-cü ildə buraxılmış kosmik texnologiyanın 70%-i mülki proqramlar, 30%-i isə hərbi proqramlar üçün olub. Seneqal və Xorvatiya ilk peyklərini 2024-cü ildə orbitə buraxmaqla dünyada aktiv peyki olan ölkələrin sayını 92-yə çatdı.

Kosmosda qlobal investisiyalara baxsaq, dövlətlər daha çox telekommunikasiya, naviqasiya və yerin müşahidəsi, müdafiə və təhlükəsizlik sahələrinə investisiya etmişlər. 2023-cü il ilə müqayisədə qlobal investisiya həcmi 72 milyarddan 117 milyard ABŞ dollarına qalxmışdır. Yəni, 62% artmışdır.
Bazarın konyukturasında demək olar ki yüksəktutumlu peyk bazarının dəyərinin 400%-dən çox artaraq 2023-cü ildə 12 milyard ABŞ dollarından 2032-ci ildə 56,3 milyard ABŞ dollarına çatacağı gözlənilir. Hal-hazırda peyklərin 54%-i çevik faydalı yük və platformalarla idarə edilir. 2033-cü ilə qədər bu göstəricinin demək olar ki, 80%-ə çatacağı proqnozlaşdırılır.

Xidmət sferasında hazırda aktiv formada konsolidasiya, birləşmələr (merge&acquisition) gedir. Qlobal şirkətlərin getdiyi bu yol dünyada kosmik sahədə maliyyə mənzərəni formalaşdırmağa kömək edir, innovasiyalara təkan verir və beynəlxalq əməkdaşlığı asanlaşdırır. Viasat və Inmarsat, SES və Intelsat ilə birləşərək birgə hərəkətə keçirlər. Peyk rabitəsi şirkətləri OneWeb və Eutelsat birləşib. Euroconsult və SpaceTec Partners kimi 60 illik kosmik konsultasiya təcrübəsinə malik şirkətlər belə birləşib Novaspace yaradıb.

Daşıyıcı raket bazarında da dünya hələlik SpaceX ilə rəqabətə hazır deyil. Baxmayaraq 2024-də Ariane 6 raketinin buraxılışı Avropanın "kosmik böhranını" aradan qaldırmaq üçün əhəmiyyətli bir addım oldu, Rusiyanın Soyuz proqramının dayandırılması, Vega C raketinin buraxılışının uğursuzluğu Avropanın "kosmik böhranını" tam aradan qaldırmayıb. ESA hələ də nə orta qaldırıcı Ariane 62, nə də ağır yük qaldırıcı Ariane 64 konfiqurasiyası ilə buraxılış xərcləri baxımından SpaceX şirkəti ilə rəqabət apara bilmir.

# Xidmətlərimiz

## Telekommunikasiya

2024-cü il canlı yayım bazarında, xüsusilə Afrika regionunda son 5 ildə Azerspace-1 və Azerspace-2 üzərindən ən çox idman yayımının olduğu il oldu. **“Afrika Millətlər Kuboku”, “FIFA Dünya Çempionatı”, “NBA Africa”, “Idols Show”, “Love Island Show Africa (LISA)”, “Big Brothers Show”, Uganda Futbol Çempionatı və Cənubi Afrika Kriket və reqbi Çempionatları** da peyklərimiz üzərindən yayımlandı.

Yaxın Şərqin ən böyük dini tədbirlərindən biri olan **Arbaeen** yürüyüşünü yayımladıq.

Azərkosmosun mobil operatorlara təqdim etdiyi xidmətin həcmi 2 dəfə artdı. Pakistanın ən böyük mobil operatoruna (Telenor) Azerspace-1 vasitəsi ilə tam xidmət verməyə başladı. **Tacikistanın Zet Mobile mobil operatoru Azerspace-2-dən istifadə etdi.**

## Peyk interneti

2024-cü ildə Azərkosmos ilk dəfə Efiopiyaya internet data xidməti təqdim edib, həmçinin İspanyanin Yaxın Şərqdəki səfirliyinə internet xidməti verib. Azərkosmos Cənubi Afrikada yerləşən Botsvana dövlətinin Mülki Aviasiya İdarəsi ilə əməkdaşlığa başlayıb. “Azerspace-1” peykinin C yayım zolağının Afrika şüası üzrə Botsvanaya peyk data xidmətinin verilməsi ilk dəfə olaraq həyata keçirilib.

Azerspace-2 peyki ilə ölkəmizin hərbi qurumlarına data xidməti verdik. Təkcə bu sahədəki gəlirlərimiz son 5 il ilə müqayisədə 2 dəfə artıb.

Azərkosmos tanınmış peyk operatoru ABS ilə əməkdaşlıq edərək ABS-3A peyki üzərindən Nigeriayada öz müştərilərinə **Pay TV** xidməti verir. Bu əməkdaşlıq sayəsində Azərkosmos reselling üzrə biznes xətlərini daha da genişləndirib.

Cənubi Sudanda internet xidmətlərimizin həcmi keçən il ilə müqayisədə 2 dəfədən çox artıb.

Azərbaycanın yeni ingilis dilli televiziya kanalı olan **AnewZ TV-nin Azerspace-1** peykində yayımlanır.

Bu il demək olar ki müdafiə sahəsində telekommunikasiya xidmətlərimiz genişləndi.

**Teleport** xidmətlərimiz üzrə Leafspace (İtaliya) kimi qlobal şirkət ikinci dəfə hostinq xidmətlərimizdən istifadə etməyə başladı.

Bu ildən Azərkosmosun Çinlə olan əməkdaşlığı daha da genişlənib. Çinin **“Starvision”, “Rhosoon”, “China Siwei”** texnologiya şirkətləri ilə əməkdaşlığa başlamışıq. Rabitə xidmətləri, peyk məlumatları, süni intellekt həlləri üzrə xidmətlərimizin əhatəsi genişlənəcək.



# Yerin məsafədən müşahidəsi xidmətləri

Azərkosmos Yerin müşahidəsi üzrə son 10 ilin ən rekord göstəricisini əldə edib. **2024-cü ildə bu sahədə müqavilə dəyəri 10 milyon dollar** həcmində əməkdaşlıqlar qurmuşuq. Yerin müşahidəsi xidmətlərimiz üzrə 42 kommersiya müqaviləsi imzaladıq. 70%-i beynəlxalq müqavilədir. 30% müqavilələr Əmlak Məsələləri Dövlət Xidməti, SOCAR, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilədir.



İlk dəfə irihəcmli dövlət əhəmiyyətli tenderlərdə Azərkosmos olaraq xeyli sayda yaxşı göstəricilərimiz oldu. Milli Su Strategiyasında, "Milli Məkan Məlumatları" informasiya sistemi, "Rəqəmsal ekologiya" informasiya sisteminin yaradılması kimi dövlət layihələrində özümüzün CİS həllərimizi təqdim edəcəyik.
Azərkosmosun CİS Mərkəzinin yaratdığı qlobal iqlim dəyişikliyinin Azərbaycanda təsirinə dair rəqəmsal iqlim platforması ötən il ictimaiyyətə təqdim olundu.
CİS Mərkəzimiz peyk xidmətlərini rəqəmsallaşdırmaq və peyk həllərindən istifadəni artırmaqla **100-dən çox layihə həyata keçirmişdir.** Həmin layihələr arasında ölkəmizin kənd təsərrüfatı, ekologiya, ətraf mühit, geoloji kəşfiyyat, ölkənin ortofoto planı üzrə layihələr yer alır.

# COP29 tədbirində fəaliyyətimiz

COP29 Baku Azerbaijan

Azərkosmos olaraq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) biz də öz töhfəmizi verdik.

COP29 Kosmik Agentliklərin Liderlərinin Sammitini keçirdik. 20-dən çox Kosmik Agentlik tərəfindən təsdiq olunmuş **“Kosmosa əsaslanan iqlim təşəbbüslərinin genişləndirilməsinə dair vəd sənədi”**ni imzaladıq. Eyni zamanda, Azərkosmos COP29 çərçivəsində panel sessiyalar keçirdi, Millətlər Birliyi ilə birgə tədbir təşkil etdi, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) beynəlxalq simpoziumunda iştirak etdi. Millətlər Birliyi Təşkilatının üzvləri olan İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri və digər həssas üzv ölkələrə iqlimlə bağlı kosmik həllərimizi təqdim etdik. Tonqa, Papua Yeni Qvineyada quraqlıq, kənd təsərrüfatı, meşə monitorinqi kimi layihələri icra etmişik. Növbəti mərhələ kimi öz təlim proqramımızı həmin ölkələrə təqdim edəcəyik.



# Beynəlxalq əməkdaşlıq

Azərkosmos 2024-cü ildə beynəlxalq müştəri tədbirlərində olduqca uğurlu stendlərlə təmsil olunub: **CABSAT (Dubay), IBC (Amsterdam), AfricaCom, IAC (Milan)** buna misaldır.

30th ANNIVERSARY CABSAT Dubai expo dates- 21- 23 May 2024 | IBC RETURNS TO THE RAI AMSTERDAM 13-16 SEPTEMBER 2024 | Africa Com | MILAN 2024 iac 75th INTERNATIONAL ASTRONAUTICAL CONGRESS

Bununla yanaşı, Ankara şəhərində keçirilən “Kosmik texnologiyalar konfransı”nda, Braziliyada keçirilən “Kosmik iqtisadiyyat üzrə liderlərin V Sammiti”ndə, Bakıda keçirilən “İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı”nda xarici kosmik Agentliklərlə birgə əməkdaşlıq görüşləri keçirilmişdir.

Azərkosmos 2024-cü ildə Türkiyənin “Plan-S”, “Impro” şirkətləri, Özbəkistanın Uzbekkosmos, qlobal CİS təminatçısı “ESRI” şirkəti, qlobal kommunikasiya şirkəti “Viasat”, Çinin “Rhosoon”, “Star.vision” və “StarWin” şirkətləri, Çexiyanın “PEKASAT SE”, qlobal peyk operatoru “ABS” şirkəti, İtaliyanın “Leaf Space” şirkəti ilə əməkdaşlığını genişləndirib.















# Əməkdaşlıq coğrafiyamız



# Kosmik ekosistem

Azərbaycanda kosmik sahə üzrə elmin, tədqiqatın, innovasiyanın, layihənin idarəolunması, kosmik hüquq, kosmosda biznes təfəkkürün inkişafı istiqamətində silsilə fəaliyyətlər həyata keçirilir. Minlərlə gənc məhz bu kimi fəaliyyətlərlə Azərbaycanda milli kosmik ekosistemi gücləndirməyə dəstək olmuşdur.

Azərkosmosun təşkilatçılığı ilə artıq üçüncü ildir ki, 4-10 oktyabr tarixlərində Azərbaycanda Ümumdünya Kosmos Həftəsi keçirildi. Gəncləri kosmik sahəyə həvəsləndirmək, maarifləndirmək və innovativ kosmik ekosistemi inkişaf etdirmək məqsədilə 2024-cü ildə ölkəmizdə bu Həftə ərzində 20-dən çox tədbir təşkil edilib. 2024-cü ildə Ümumdünya Kosmos Həftəsinin əsas mövzusu **“Kosmos və İqlim Dəyişikliyi”** olub.














# Maarifləndirici fəaliyyət

Ölkəmizdə peyk təsvirlərindən istifadənin təşviqinə dair növbəti dəfə **"Yer səthinin məsafədən müşahidəsi üzrə elm müsabiqəsi"** keçirilib. Bu elm müsabiqəsi Azərkosmos tərəfindən artıq 8-ci dəfə keçirilib. Müsabiqənin əsas məqsədi peyk təsvirlərinin və xüsusilə Azersky peykinin arxiv təsvirlərinin istifadəsini əlçatan etmək, ölkə daxilində peyk təsvirləri ilə həyata keçirilən layihələrin inkişafını dəstəkləməkdir.

2024-cü ildə müsabiqəyə **382** müraciət daxil olmuş, onlardan **255** mövzu təsdiq edilmiş və həmin mövzular əsasında **78** layihə təqdim olunmuşdur. Bu layihələr arasından **52** layihə müsabiqə meyarlarına cavab verərək finala keçmişdir və **3** nəfər qalib seçilmişdir.

Azərbaycanda ilk dəfə **"Kosmik Tibbin Əsasları"** mövzusunda təlim proqramı keçirilmişdir. Azərkosmos və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) birgə təşkil etdiyi bu beynəlxalq təlim proqramı 19-21 dekabr tarixlərini əhatə edib.








Kifayət qədər zəngin proqramı olan 3 günlük təlimdə iştirakçılara kosmik tibbin əsasları, mikroqravitasiyaya uyğunlaşma, kosmosda tibbi monitorinq, teletibb, psixoloji yanaşmalar, ürək-damar adaptasiyası, skelet sistemləri, əzələ və sümük quruluşu, görmə dəyişiklikləri, nevroloji dəyişikliklər və digər sahələr üzrə dərin biliklər təqdim edilib.

Proqramın məqsədi kosmik tibb sahəsində yerli peşəkar kadrları yetişdirməkdir. Bu təlim ölkəmizin kosmik tibb sahəsi üzrə ilk peşəkarların yetişməsinə yol açacaq, kosmik ekosistemin bu sahədə əhəmiyyətli bir hissəsinə çevriləcək.

# İnsan kapitalının inkişafı

Azərkosmos, Kosmik Nəsil Məşvərət Şurası (SGAC), Gənclər Fondu (AzGF) və Gənclərin Maariflendirilməsinə Dəstək İctimai Birliyinin təşkilatçılığı ilə Bakıda **“Space Generation Azerbaijan 2024”** (SG Azerbaijan) tədbiri keçirilib. Artıq ikinci dəfə təşkil olunan tədbir “Üfüqləri aşaraq: dayanıqlı kosmos, dayanıqlı yer” mövzusuna həsr olunub.

16-25 aprel tarixlərində ADA Universitetinin təşəbbüsü ilə keçirilən **ADA “Employability Week”** layihəsinə Azərkosmos əməkdaşları qatılıblar.

Əməkdaşlarımız ADA Universitetinin tələbələri üçün “The role of emotional intelligence”, “Mastering Interview Skills”, “Personal Branding and Digital Networking” və digər şəxsi inkişaf, eyni zamanda müasir dövr tələblərinə uyğun bilik və bacarıqların artırılması istiqamətində təqdimatları keçirərək, tələbələri məlumatlandırıblar.

Layihənin yekun nəticələrinə əsasən, Agentliyimiz 10 nəfər tələbəni Azərkosmosda təcrübə proqramına qəbul edib.








Kosmik Ticarət İnstitutu (Space Commerce Institute) və Azərkosmos arasında tərəfdaşlıq çərçivəsində Azərbaycanda ilk dəfə “Qadınlar üçün Kosmos” adlı üçaylıq Mentorluq proqramı keçirilib. Proqram mart-may aylarını əhatə edib. Mentorluq proqramının məqsədi kosmos sahəsində qadınların tam potensiallarını aşkar etmək və onların qlobal əməkdaşlıqda iştirakını dəstəkləməkdir.



# İntellektual məhsulun ixracı

Azərkosmos beynəlxalq kosmik bazarda təkcə peyk xidmətlərini deyil, həm də qazandığı bilik və təcrübəni kommersiyalaşdırır.
Belə ki, Azərkosmos özünün intellektual məhsulu olan radiotezliklərin idarəolunması üzrə təlim və konsultasiya proqramını Bəhreyn Krallığının "Telekommunikasiya üzrə Tənzimləmə Qurumu"na təqdim edib.
Bəhreyn Krallığının paytaxtı Manama şəhərində keçirilən 10 günlük proqram radiotezliklərin idarə edilməsi metodları, peyk və yerüstü stansiyaların qeydiyyata alınması üçün ərizələrin hazırlanması, peyk şəbəkələri arasındakı interferensiyanın təhlili və aradan qaldırılması, həmçinin bu istiqamətdə beynəlxalq qanun və hüquqi normalar kimi mövzuları əhatə edib.











Azərkosmosun intellektual məhsulu Mozambik Administrasiyasının Kommunikasiya İnstitutunun nümayəndələrinə də təqdim olunub.
Təlim proqramı çərçivəsində Mozambik təmsilçilərinə radiotezliklərin idarə edilməsinə dair ilkin texniki biliklər verilib, hər bir ölkə üçün xüsusi orbital mövqeyin təyin edilməsi, peyk və Yer stansiyaları üçün müvafiq ərizələrin hazırlanması prosesləri izah edilib.
Bu təlim proqramı Afrika, Mərkəzi Asiya və Yaxın Şərqin kosmos sahəsində inkişaf etməkdə olan ölkələrinə təqdim olunur.

SPACE ACADEMY
of azercosmos

# KOSMİK Akademiya

Azərkosmos, Azərbaycanın milli kosmik ekosisteminin aparıcı qüvvəsi olaraq son 10 ildə təhsil, elm, təlim və maarifləndirmə sahələrində bir sıra əhəmiyyətli layihələr həyata keçirib. Məqsəd ölkəmizin kosmik texnologiyalar sahəsindəki mövqeyini gücləndirmək və kosmos sahəsində insan kapitalını inkişaf etdirmək olub. Bu məqsədləri daha da strukturlu və nizamlı həyata keçirmək üçün KOSMİK Akademiya yaradılıb. Akademiyanın hədəfi Azərbaycan gənclərinin kosmos və yüksək texnologiyalara olan marağını artırmaq və onları gələcək texnoloji inkişafa hazırlamaqdır.

KOSMİK Akademiya regionda alternativi olmayan, region ölkələri həmçinin Mərkəzi Asiyada kosmik hub (yəni kosmik qovşaq) rolunu oynayır. KOSMİK Akademiyanın fəaliyyətinin əsas istiqaməti gənclərin kosmik sahədə təhsilini və təcrübəsini artırmağa yönəlib. Akademiya Azərkosmosun yerli və beynəlxalq təcrübələrini birləşdirərək gələcək nəsillər üçün bu sahədə mütəxəssislər yetişdirməyi hədəfləyir. **KOSMİK Akademiyanın layihələri sırasında:** Azərbaycan Milli Peyk İnnovasiya Müsabiqəsi, İsrail Kosmik Agentliyi ilə əməkdaşlıq çərçivəsində Beynəlxalq Kosmik Olimpiada, Asiya-Sakit Okean Regionu Kosmik Agentliklərinin Forumu (APRSAF) ilə əməkdaşlıqda “Beynəlxalq Kosmik Poster Müsabiqəsi”, Space Camp Türkiye (Türkiyə Kosmik Düşərgəsi), Birləşmiş Ərəb Əmirliklərinin Məhəmməd Bin Rəşid Kosmik Tədqiqatlar Mərkəzi (MBRSC) ilə əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsi proqramı və digər layihələr yer alır.

# MBRSC Təcrübə Mübadiləsi Proqramı





# Beynəlxalq Astronavtika Konqresi





# Beynəlxalq Kosmik Olimpiada






# Beynəlxalq Kosmik Poster Müsabiqəsi





# Azərkosmos qlobal medianın gözündə

2024-cü ildə Azərkosmosun fəaliyyəti haqqında xəbərlər il boyunca yerli və beynəlxalq medianın diqqətində olmuşdur. Yerli media nümayəndələrinin iştirakı ilə media turlar, media brifinqlər, beynəlxalq media tərəfdaşlar ilə birgə netvörkinq tədbirləri həyata keçirilmişdir. Azərkosmos və Medianın İnkişafı Agentliyinin birgə təşəbbüsü ilə media nümayəndələri üçün **"İqlim dəyişikliyi və kosmos"** mövzusunda görüş keçirilmişdir. Milli Mətbuat və Jurnalistika Günü ərəfəsində keçirilən görüşdə məqsəd media nümayəndələrinə kosmik texnologiyaların iqlim dəyişikliyi ilə mübarizədə necə istifadə olunmasına dair maarifləndirmək olub.





**"Euronews"** kanalı qadınların kosmosdakı rolu və bu sahədə qadınların iştirakı ilə bağlı Agentliyimizin Strategiya və biznesin inkişafı departamentinin direktoru **Natavan Həsənovadan** müsahibə alıb.

euronews.



**NE Global Media rəqəmsal mətbuat platformasında Azərbaycanın kosmosdan baxışı:** İqlim dəyişikliyini izləyən peyklər (Azerbaijan's Space Shot: Satellites Tracking Climate Change Clues) haqqında geniş məqalə dərc olunub. Məqalədə COP29 çərçivəsində keçirilən Kosmik Agentliklərin Liderlərinin Sammitindən bəhs olunub.


NE GLOBAL

Azerbaijan's Space Shot: Satellites Tracking Climate Change Clues

At COP29, Azercosmos, World Space Agencies Talk Collaborations

The Space Agency of the Republic of Azerbaijan, Azercosmos, engages in a wide range of R&D activities that aim to foster technological advancement, cooperate with international stakeholders and partners, participate in major global projects, and build local know-how.

COP29
Baku
Azerbaijan


المكتب الإعلامي لحكومة دبي / الأخبار

مركز محمد بن راشد للفضاء يستضيف طلابًا من أذربيجان بالتعاون مع وكالة الفضاء الأذربيجانية لخوض تجربة عملية متميزة

15 سبتمبر 2024 3:23 م

COP29 çərçivəsində Afrika regionunun media nümayəndələri Azərkosmosun Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzinə səfər edərək, Azərkosmosun ərazisindəki yüksək texnoloji infrastrukturla, obyektlərlə həmçinin anten meydançası və texniki bina ilə tanış olublar.





# Gələcək fəaliyyətin prioritetləri

## Yeni strateji layihələrimiz

Azərkosmos ölkənin kosmik proqramının davamlılığı istiqamətində hazırda yeni peyk layihələri üzərində çalışır. İlk telkommunikasiya peykimiz - **Azerspace-1** peykinin 2028-2029- cu illərdə əvəzlənməsi istiqamətində ötən ildən start verilən **Azerspace-3** layihəsi üzrə işlər davam edir. Daha qabaqcıl və texnoloji həllərə hədəflənmiş bir layihə ortaya qoymaq üçün beynəlxalq konsultantlar da cəlb olunub.

Yer müşahidəsi sahəsində də yeni peyk proqramımız davam edir. Ən azı iki aşağı orbitli peykləri (Azersky- 2A və Azersky- 2B) özündə birləşdirəcək **Azersky-2** layihəsi ilə biz yer müşahidəsi xidmətləri istiqamətində funksiyalarımızı genişləndirəcəyik.

Peyk istehsalı zavodu və istehsalata cəlb ediləcək işçilər üçün Kosmik Aparatların İnkişafı Mərkəzinin qurulması üzrə dizayn və layihələndirmə işlərinə yekun vurmuşuq.

Bununla yanaşı, Azərkosmos tarixində ilk dəfə törəmə müəssisə - Kosmik Aparatların İstehsalı Mərkəzi - **“Spacecraft Development and Production” MMC** yaratdıq. MMC kosmik aparatların istehsalı layihələrimizi daha asan şəkildə həyata keçirməkdə dəstək olacaq.



Azerspace-3

(Peykin hazırlanması prosesdədir)

Azersky-2 proqramı



# Dayanıqlı inkişaf

Kosmik sahə eyni zamanda beynəlxalq ictimaiyyətin davamlı inkişafı əldə etmək üçün razılığa gəldiyi bir sıra mühüm məqsədlərin əldə olunmasına da böyük töhfə verir. Dayanıqlı İnkişaf Məqsədləri adlı hesabat göstərir ki, yerin peyk müşahidəsi - qida və kənd təsərrüfatı, sağlamlıq tətbiqləri, telekommunikasiyaya çıxış, fəlakət riskinin azaldılması və humanitar böhranlar, təbii ehtiyatların və ətraf mühitin idarə edilməsi, yoxsulluğun azaldılması kimi mövzu başlıqlarında peyk imkanlarından istifadə olunması artıq beynəlxalq təcrübədə özünü doğrultmuşdur. Buna görə də Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunması yönündə əməkdaşlıq kosmos sahəsinin inkişafında mühüm çərçivədir.

Azərkosmos Millətlər Birliyi Təşkilatının (The Commonwealth of Nations) üzvləri olan İnkişaf etməkdə olan kiçik ada dövlətləri və digər həssas üzv ölkələrlə iqlimlə bağlı fəaliyyətin gücləndirilməsi istiqamətində əməkdaşlığa başlayıb. Azərkosmos tərəfindən Birliyə üzv olan ölkələrə iqlim dəyişikliyində kosmik texnologiya və coğrafi məlumatlar vasitəsilə təhlillərin aparılması və fəaliyyətin qiymətləndirilməsi məqsədilə kompleks proqram hazırlanıb. Proqram çərçivəsində birliyin üzvü olan dövlətlərdə, xüsusilə Karib dənizi regionunda və Sakit okean ölkələrinin ərazilərində:

- peyk görüntülərindən istifadə etməklə quraqlıq səviyyəsinin monitorinqi və quraqlıq riskinin qiymətləndirilməsi;
- əkin sahələrinin sinifləndirilməsi;
- meşələrin kompleks monitorinqi;
- metan ($CH_4$) konsentrasiyasının kosmik monitorinqi fəaliyyətləri icra olunacaq.

Azərkosmos “Dayanıqlı İnkişaf Məqsədləri”ndən irəli gələn təşəbbüslər kontekstində kosmosa əsaslanan texnologiyalardan istifadə edərək bütün bəşəriyyətin rifahı üçün töhfə verir. Yer müşahidəsi xidmətlərimizlə biz nəinki dünyanın istənilən nöqtəsi üçün təsvirlər əldə edirik, həm də böyük həcmdə arxivləşdirilmiş məlumat toplayırıq. Əldə etdiyimiz peyk görüntüləri ilə biz süni intellekt vasitəsilə onu emal edir, obyektləri təyin edir və dəyişiklikləri aşkar edirik.

COMMONWEALTH OF NATIONS



# Yekun

**Azərbaycanın Kosmik Agentliyi** – Azərkosmos özünün fəaliyyəti haqqında daimi olaraq yerli və beynəlxalq ictimaiyyəti məlumatda saxlayır, paylaşdığı hər bir məlumatın şəffaflığına təminat verir. Bununla əlaqədar olaraq Azərkosmos artıq dördüncü ildir ki fəaliyyətinin spesifikasını il ərzində həyata keçirdiyi fəaliyyətlərini İllik hesabat formasında ictimaiyyətə təqdim edir.

azercosmos | AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ

# AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ - AZƏRKOSMOS

info@azecosmos.az